25-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində

# Həmişə xoş müjdəli

## Sərgi bu dəfə "Cənub qaz dəhlizi"nin açılışı ilə yadda qalacaq

Bakıda 25-ci dəfədir Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi keçirilir. Artıq xeyli vaxtdır ki, bu tədbirlə yanaşı, eyniadlı konfrans da təşkil olunur. Başqa sözlə, ötən illər ərzində sərgi həm iştirakçılarının sayına, həm nümayiş etdirilən ekspozisiyaların sahəsinə, həm də əhatə etdiyi mövzu dairəsinə görə xeyli genişlənib. Bu sərginin bir özəlliyi də onun həmişə xoş müjdəli olmasındadır.

Hələ 1994-cü ilin mayında keçirilən ilk sərgini "Əsrin müqaviləsi"nin müjdəçisi adlandırırlar. Çünki cəmi bir neçə ay sonra Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi barədə 11 xarici şirkətlə Hasilatın Pay Bölgüsü Sazişi imzalanıb. O vaxtdan bəri bu tədbir dünyanın onlarca ölkəsinin neft, qaz və energetika sektorunu təmsil edən aparıcı mütəxəssislərin görüşərək təcrübələrini bölüşdüyü, memorandumların, gələcək əməkdaşlığa dair sazişlərin, müqavilələrin imzalandığı məkana çevrilib.

Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi bir çox hallarda Azərbaycanın həyatında baş verən mühüm hadisələrlə müşayiət olunub, ölkədə keçirilən digər əhəmiyyətli tədbirlərlə demək olar ki, eyni vaxta düşüb. Bu dəfə də belədir. 25-ci sərgi 24 il əvvəl ilk dəfə bu tədbiri dəstəkləmiş və onun keçirilməsinə nail olmuş ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə təsadüf etdi. Sərginin öz işinə başladığı tarixdən bir gün əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənə ilə qeyd olundu. Azərbaycanın həyatında daha mühüm bir hadisə isə sərgi öz işinə başladığı gün "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasiminin keçirilməsi oldu.

Bakı Ekspo Mərkəzində öz işini davam etdirən neft-qaz sərgisinin tamaşaçıları da məhz paytaxtımızın yaxınlığındakı Səngəçal terminalından İtaliya torpağınadək uzanan "Cənub qaz dəhlizi"nin açılışının xoş əhval-ruhiyyəsi ilə yaşayırlar. İştirakçılar bir-biri ilə təəssüratlarını bölüşür, işgüzar söhbətlər edir, fikir mübadiləsi aparırlar. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın sərginin ilk günündə Bakı Ekspo Mərkəzinə gəlməsi, ekspozisiyalarla tanış olması, müxtəlif ölkələrdən gəlmiş nümayəndələrlə görüşməsi hamıda xoş təəssürat oyadıb.






Budəfəki sərgidə 38 ölkənin 312 tanınmış şirkəti iştirak edir. İştirakçılar arasında hər il sərgidə öz ekspozisiyaları üçün yer alan, eləcə də debütünü edən şirkətlər var. Məsələn, ölkəmizdə həyata keçirilən ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı BP (Böyük Britaniya), Azərbaycanın etibarlı tərəfdaşları kimi tanınmış "Total" (Fransa), "Statoyl" (Norveç), BOTAŞ (Türkiyə) və digər şirkətlər yenə də sərginin fəal iştirakçılarıdır. Sərginin baş sponsoru isə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR-dır.

İlk sərginin keçirildiyi vaxtdan bəri SOCAR böyük inkişaf yolu keçib və transmilli şirkətə çevrilib. Şirkətin təqdim etdiyi ekspozisiyalarda da məhz bir sıra xarici tərəfdaşlarla birlikdə həyata keçirilən qlobal layihələr çərçivəsində qazanılan nailiyyətlər əks olunur.

SOCAR-ın baş ofisinin Elm və texnika şöbəsinin rəis müavini Rasim Vəliyev deyir:

- Əlamətdar günlər yaşayırıq. Azərbaycanda 25-ci dəfədir beynəlxalq neft-qaz sərgisi keçirilir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə neft-qaz sərgisi keçiriləndə elmi-tədqiqat institutunda çalışırdım. Yadımdadır ki, tədbirdə 80 şirkət iştirak edirdi. İllər keçdikcə ölkəmizə maraq artdı. Bu, xüsusilə sözügedən tədbirdən bir neçə ay sonra imzalanan "Əsrin kontraktı"nın sayəsində baş verdi. Bu gün qürurla deyə bilərik ki, indiyədək yataqların kəşfiyyatı, işlənməsi və bərpası istiqamətində xarici şirkətlərlə 35 saziş imzalanıb. 25 ilə yaxın bir müddətdə Azərbaycanda keçirilən sərgilərdə minlərlə şirkət iştirak edib, ölkəmizin nailiyyətlərinin əyani şahidi olublar. SOCAR özü də xeyli inkişaf edib, hətta xarici ölkələrə sərmayələr yatırıb. Türkiyə, Gürcüstan, İsveçrə, Rumınya, Ukrayna kimi ölkələrdə nəhəng layihələrə imza atıb, yanacaqdoldurma məntəqələri, "Petkim", "Star" kimi zavodları açıb, Avropaya qədər uzanan "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində mühüm işlər görüb. "Cənub qaz dəhlizi"nin açılışından böyük qürur hissi duyuruq. Bu layihənin gerçəkləşməsində minlərlə neftçi iştirak edib. Yaxın vaxtlarda Trans-anadolu Qaz Boru Kəmərinin, 2020-ci ildə isə Transadriatik Qaz Boru Kəmərinin açılışı gözlənilir. Azərbaycan indinin özündə də dünyada qaz ixrac edən ölkə kimi tanınır. Getdikcə mavi yanacaq ixracı daha da artacaq. Yaxın vaxtlarda SOCAR-ın "Polimer" və "Karbomid" zavodları işə düşəcək. Bütün bu nailiyyətlər əlbəttə ki, Azərbaycan dövlətinin apardığı düzgün, məqsədyönlü siyasətin nəticəsində mümkün olub.

Bunu sərgidə iştirak edən xarici şirkətlərin nümayəndələri də vurğulayırlar. Rusiyanın "Çelyabinsk Xüsusi Mülki Tikinti" Birliyinin meneceri İvan Litvyakov deyir:

- Bizim nümayəndə heyəti Xəzər neft və qaz sərgisində dəfələrlə olub. Çelyabinsk vilayətinin bir sıra müəssisələri burada öz məhsul və xidmətlərini təklif edir. Builki yubiley sərgisinin keçən ilə nisbətən bir qədər də genişləndiyi müşahidə olunur. Ölkənizdə baş verən mühüm hadisələr, o cümlədən "Cənub qaz dəhlizi"nin açılışı, Prezident İlham Əliyevin sərgiyə gəlişi iştirakçılara xoş əhvali-ruhiyyə bəxş edib. Çelyabinsk vilayətinin sərgidə iştirakı da xeyli genişlənib. Bizim müəssisə əsasən boru kəməri armaturları, digər neft avadanlıqları istehsal edir. Bir sıra xarici ölkələrə də məhsul göndəririk. Azərbaycanla əsas alqı-satqı münasibətlərimiz keçən ildən yaranıb. Biz ölkənizin neft-qaz və tikinti şirkətləri ilə münasibətlərimizi genişləndirmək, eləcə də potensial tərəfdaşlar tapmaq niyyətindəyik və bu işdə sərginin köməyinə bel bağlayırıq. Qaldı ki, paytaxt şəhəriniz haqqında təəssüratıma... Keçirdiyim hissləri ifadə etməyə söz tapmıram. Dərhal hiss olunur ki, dinamik inkişaf edən bir ölkədə qonağıq. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyində iştirak etməyimiz bizə ikiqat məmnunluq bəxş etdi.

Sərgiyə gələnlər bu və digər şirkətlərin stendlərinə yaxınlaşır, iştirakçılarla söhbət edir, müxtəlif suallar verirdilər. Onların əksəriyyəti Azərbaycanın neft-qaz sektorunda çalışan mütəxəssislər, eləcə də bu sahəyə aidiyyəti olan digər müəssisələrin nümayəndələri idi.

"Kapital Bank"ın əməkdaşı Oqtay Orucov sərginin ona olduqca xoş təəssürat bağışladığını bildirdi: "Burada bir neçə xarici mütəxəssislə tanış olduq, onlara bank xidmətlərimizi təklif etdik. Bizim neft-qaz şirkətləri ilə sıx əlaqələrimiz var, belə ki, biz onlara bank xidmətləri göstəririk. Ümumiyyətlə, mən bütün sərgilərə baxmağı çox sevirəm. Bunların arasında neft-qaz sərgisi xüsusi yer tutur. Çünki Azərbaycan bu sahənin öncülüdür".

Sərgiyə tamaşa edən bir qrup neftçi ilə də həmsöhbət olduq. Onlar sərginin peşəkarlıq cəhətdən əhəmiyyətini vurğuladılar, burada son texnologiya və innovasiyalarla tanış olduqlarını, nümayiş etdirilən avadanlıqları nəzərdən keçirdiklərini söylədilər. "Azneft" İstehsalat Birliyinin mühəndisi Aqil Abışov həmkarlarının fikrini ifadə edərək dedi: "Bir sözlə, bu sərgi Azərbaycanın inkişafını göstərir və davamlı inkişafa xidmət edir. Odur ki, özünün də davamlı olmasını, gələcək illərdə yenə də keçirilməsini istərdik".

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***